**Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva parlamentin plenar iclasında “Tibbi sığorta haqqında” qanuna dəyişikliklərin müzakirəsi zamanı bir sıra vacib məsələlərə toxunub və aidiyyatı qurumlara çağırış edib. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə səs verəcəyini bildirən deputat çıxışında üç vacib məsələyə toxunub. Həmin məsələlər onlarca seçicinin parlamentdə səsləndirməyi xahiş etdiyi problemlərdir.**

# Deputat: Ailə üçün övlad sahibi olmaq ən önəmli məsələdir



“Əvvəla, onu deyək ki, ailələrdə sonsuzluq problemi sürətlə artır. Bu problemin həm dünyada, həm də ölkəmizdə getdikcə artması müşahidə edilir. Ailələrin böyük bir qismi sözügedən problemə görə dağılır. Məlumdur ki, tibbin imkanları da ilbəil inkişaf edir. Buna baxmayaraq, ailələrin çox hissəsi bu xidmətlərin özəl klinikalarda çox baha başa gəldiyi üçün istifadə edə bilmirlər. Onlar icbari tibbi sığorta çərçivəsində ən azı hər ailəyə minimum bir dəfə süni mayalanma şansının verilməsini istəyirlər”.

Q.Paşayeva bugünlərdə iki şəhid ailəsinin həmin məsələ ilə bağlı ona müraciət etdiyini, bununla əlaqədar olaraq özəl klinikalardan xahiş etdiyini bildirib. Klinikanın rəhbərliyindən – “Sizə kömək edərik, Qənirə xanım, bizə çatan vəsaiti almarıq. Amma prosedur üçün dərmanların pulunu ödəmək lazımdır” – deyiblər: “Çox xahiş edirik ki, müvafiq qurumlarımız, Səhiyyə Nazirliyi, TƏBİB bu məsələyə baxsın. Sonsuzluq problemi yaşayan ailələr tibbin imkanlarından yararlanaraq övlad sahibi ola bilsin. Bu, çox ciddi problemdir. Ailə üçün övlad sahibi olmaq ən önəmli məsələlərdəndir. İnsanlar biləndə ki, tibbin imkanları onlara kömək edə bilər, lakin vəsait olmadığı üçün övlad sahibi ola bilmirlər, bu çox ciddi narahatlıq yaradır. Biz müvafiq tənzimləmələrlə nə qədər dağılan ailələrin qarşısını ala bilərik”.

Deputat Milli Məclisin sədrinə müraciət edərək, “Reproduktiv sağlamlıq haqqında” Qanunun artıq qəbul olunmasına, bu istiqamətdə ciddi işlərin görülməsinə ehtiyac olduğunu səsləndirib.

Q.Paşayevanın qaldırdığı ikinci məsələ böyrək köçürülməsi ilə bağlı idi. Gənc seçicisinin böyrək köçürülməsi ilə bağlı müraciətini, ailə yaxınlarından heç kəsin toxumalarının uyğun gəlmədiyindən, əməliyyatın baş tutmamasını diqqətə çatdıran deputat bildirib ki, bu gəncin yaşamaq imkanı olduğu halda, ölümə tərk edilmiş vəziyyətdə qalması acınacaqlı durumdur: “Axı biz qanun qəbul etdik. O qanun parlamentdə qəbul olunan ən gözəl qanunlardan biri idi. Heç kəs məcbur edilmir ki, o və ya ailə üzvləri bir hadisə nəticəsində beyin ölümü baş verdiyi zaman məcburi orqanları götürülsün. Bununla belə, ölkəmizdə yüzlərlə insan var ki, könüllü şəkildə bu işə razıdır. Hətta vəsiyyətnaməsində də yazırlar ki, bir qəza olarsa, beyin ölümü keçirdiyim zaman orqanlarım torpaq altda çürüməsin və qoy onlarla heç olmazsa bir insan yaşasın. Bir insan yeddi insanı yaşada bilər. Məsələ ilə bağlı qanunumuz da var. Səhiyyə qurumlarımız bu qanunun həyata keçirilməsini təmin etsin. Avropa ölkələrində, qardaş Türkiyədə bu mexanizmi çox gözəl qurublar. Biz qardaş ölkənin təcrübəsindən yararlanaraq, müvafiq sistem qura bilərik. Sabah bu uşaqlardan hər biri bizim ailəmizin övladı ola bilər. Hamımız bu çıxılmaz durumdan əziyyət çəkə bilərik. Ona görə mən səhiyyə qurumlarını qəbul edilən qanunun həyata keçirilməsinə qısa müddətdə baxılmasına səsləyirəm”.

Dövlət hesabına böyrək köçürülmə əməliyyatları ilə bağlı tapşırıqlar verdiyinə görə cənab Prezidentə təşəkkür edən komitə sədri növbələri sürətləndirməyin vacibliyini deyib. Bildirib ki, növbə ucbatından gözləmək imkanları olmayanlar məcbur olurlar ki, borc pul tapıb, özəl xəstəxanalara getsinlər: “Biz gündəlik tibb qurumları ilə danışanda bu məsələləri diqqətə çatdırırıq. Ona görə də mən tibb qurumlarını, xüsusilə qəbul edilən qanunların həyata keçirilməsi prosesini sürətləndirməkdə daha fəal olmağa çağırıram. Çünki bu yüzlərlə vətəndaşımızın xahişidir”.

Q.Paşayeva üçüncü məsələ – koronavirusun “Omicron” ştammının dünyada geniş yayılması ilə bağlı insanlarda immunitet zəifliyi yarandığını vurğulayıb. İmmuniteti yüksəltmək üçün isə keyfiyyətli qida ilə bərabər, həm də lazım olan dərmanların alınması məsələsinin vacibliyini qeyd edən deputat bildirib ki, virusa yoluxanların virusa qarşı müdafiə qabiliyyəti azaldığına görə, onların müxtəlif dərmanlara, vitaminlərə daha çox ehtiyacı olur: “Ona görə də, çox xahiş edərdim ki, dərmanların qiyməti məsələsinə müvafiq qurumlar baxsın. Xüsusilə, bu dövrlərdə təcili lazım olan dərmanların qiymətləri və bu qiymətlərin əlçatan olması diqqətdə olmalıdır. Xəstələrin heç də hamısının bu dərmanları almağa imkanı yoxdur. Əhalinin aztəminatlı təbəqəsinin qiymətləri şişirdilmiş dərmanları almağa necə gücü çatsın? Bu, hər gün onlarca vətəndaşımızın etdiyi müraciətdir. Buna görə də dərmanların hamıya əlçatanlığının təmin edilməsi üçün Səhiyyə Nazirliyindən, TƏBİB-dən xahiş edirəm ki, bu məsələlərə diqqət artırılsın”.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***